**“Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyulması ilə bağlı məhkəmə aktlarına dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2026-cı il 7 iyul tarixli 13 nömrəli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Planın təsdiq edilməsi barədə**

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**“ 7 ” iyul 2026-cı il** **№ 14** **Bakı şəhəri**

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-1 və 80-ci maddələrini, Məhkəmə-Hüquq Şurasının 2020-ci il 29 fevral tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası”nın 2.1-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

**QƏRARA ALIR:**

**1.** “Məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla inzibati orqanın üzərinə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyulması ilə bağlı məhkəmə aktlarına dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2026-cı il 7 iyul tarixli 13 nömrəli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Plan (bundan sonra – Plan) təsdiq edilsin.

**2.** Monitorinq respublikanın inzibati məhkəmələrini və apellyasiya instansiyası məhkəmələrində baxılan inzibati mübahisələri əhatə etməklə, 2027-ci ilin 1 yanvar tarixindən 2028-ci ilin 1 yanvar tarixinədək olan dövr ərzində - 1 (bir) il müddətində həyata keçirilsin.

**3.** Monitorinq məhkəmələrdən anket (cavablandırılması nəzərdə tutulan suallar toplusuna dair sorğu) məlumatlarının toplanılması və “Elektron məhkəmə” informasiya sisteminin imkanlarından istifadə edilməklə həyata keçirilsin.

**4.** Ali Məhkəmənin Aparatı Planın icrası ilə bağlı Ali Məhkəmənin İnzibati kollegiyası ilə razılaşdırmaqla Məhkəmə-Hüquq Şurasının 2020-ci il 29 fevral tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası”nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin.

**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri** **İnam Kərimov**